# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 57** **Bakı şəhəri, 20 fevral 2023-cü il**

***"Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

"Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 418-VIQD nömrəli Qanununun tətbiqi və "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 620 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 dekabr tarixli 1544 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155; 2019, № 3, maddələr 528, 534, 544, 563, 566, 568, № 4, maddə 753, № 5, maddələr 935, 945, 971, № 7, maddə 1325, № 8, maddə 1475, № 10, maddə 1677, № 11, maddə 1878, № 12, maddələr 2091, 2095; 2020, № 3, maddə 344, № 4, maddə 479, № 5, maddə 643, № 6, maddə 784, № 8, maddə 1134, № 9, maddə 1222, № 10, maddə 1273, № 11, maddələr 1403, 1408, № 12 (V kitab), maddələr 1589, 1597; 2021, № 2, maddə 203, № 3, maddələr 278, 288, 293, 300, 302, № 4, maddələr 395, 399, 404, 416, 417, 418, № 6 (IV kitab), maddə 695, № 7, maddələr 871, 874, № 8, maddələr 966, 973, № 9, maddə 1064, № 10, maddələr 1181, 1187, 1192, № 11, maddələr 1256, 1274, 1280, 1283; 2022, № 1, maddələr 53, 70, № 4, maddələr 377, 388, 398, 415, № 5, maddə 577, № 7, maddə 811, № 8, maddə 1026, № 9, maddələr 1085, 1101, № 10, maddə 1210; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 dekabr tarixli 448 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı"na aşağıdakı məzmunda "1.4.7.0.0.0" köməkçi bölmə, "1.4.7.1.0.0", "1.4.7.2.0.0" və "1.4.7.3.0.0" paraqraflar əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 4 | 7 | 0 | 0 | 0 | Dövlət icbari şəxsi sığortaya ayırmalar |
| 1 | 4 | 7 | 1 | 0 | 0 | Dövlət icbari şəxsi sığorta haqqı |
| 1 | 4 | 7 | 2 | 0 | 0 | Dövlət icbari şəxsi sığorta haqqında qanunvericiliyin pozulmasına görə tətbiq edilən cərimələrdən daxilolmalar |
| 1 | 4 | 7 | 3 | 0 | 0 | Dövlət icbari şəxsi sığorta haqqında qanunlarla müəyyən edilmiş digər gəlirlər |

**2.** Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatına əlavə" üzrə:

2.1. 1.4-cü bəndin ikinci abzasına (ikinci halda) "daxilolmalara" sözündən sonra ", dövlət icbari şəxsi sığorta ilə bağlı gəlirlərə" sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 1.4.7-ci yarımbənd əlavə edilsin:

"1.4.7. Dövlət icbari şəxsi sığorta ilə bağlı ayırmalara dövlət icbari şəxsi sığorta haqqı, dövlət icbari şəxsi sığorta haqqında qanunvericiliyin pozulmasına görə tətbiq edilən cərimələrdən daxilolmalar və dövlət icbari şəxsi sığorta haqqında qanunlarla müəyyən edilmiş digər gəlirlər daxildir.".

**3.** Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatı"na aşağıdakı məzmunda "280000" bölmə və "281000" köməkçi bölmə əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| Dövlət icbari şəxsi sığorta xərcləri | | | | | 280000 |
| | Qanunla müəyyən olunmuş qaydada və məbləğdə ödənilən sığorta haqları | | | | 281000 |

**4.** Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə"yə aşağıdakı məzmunda yeni bölmə və köməkçi bölmə əlavə edilsin:

**"280000. "Dövlət icbari şəxsi sığorta xərcləri"** bölməsinə qanunvericiliyə uyğun olaraq ödənilən dövlət icbari şəxsi sığorta ilə bağlı xərclər daxildir. Bu bölmə "281000. "Qanunla müəyyən olunmuş qaydada və məbləğdə ödənilən sığorta haqları" köməkçi bölməsindən ibarətdir.

**281000. "Qanunla müəyyən olunmuş qaydada və məbləğdə** ödənilən sığorta haqları**"** köməkçi bölməsinə dövlət icbari şəxsi sığorta haqqında qanunlarla müəyyən edilmiş qaydada və məbləğdə ödənilən sığorta haqları ilə bağlı xərclər daxildir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***